*Azərbaycan Respublikası təhsil*
*nazirinin 02.08.2017-ci il tarixli,*
*230 nömrəli əmrinə 5 nömrəli əlavə*

**Tədris planına dair qeydlər**

1. Gündüz ümumtəhsil məktəblərinin nəzdindəki qiyabi qruplar (bundan sonra– qiyabi qruplar) 9 (doqquz) nəfərdən az olmamaqla komplektləşdirilir.
2. Qiyabi qruplarda dərslər məktəbin direktoru tərəfindən təsdiq olunmuş cədvəl üzrə həftədə 3 (üç) gün tədris edilir.
3. Qiyabi qruplarda təhsilalanlar üçün tədris dilindən asılı olaraq, Azərbaycan dili (rus dili), riyaziyyat, fizika, kimya fənlərindən məktəb direktorunun təsdiq etdiyi cədvəl üzrə fərdi məsləhət məşğələləri təşkil edilir. Hər fənn üzrə fərdi məsləhət məşğələsinə həftədə 0,5 akademik saat ayrılır.
4. Tədris olunan fənlər üzrə proqram materiallarının mənimsənilməsi səviyyəsini müəyyən etmək məqsədilə qiyabi qruplardakı təhsilalanların hər birindən şifahi formada zaçot qəbul edilir. Zaçotların qəbulu dərs ili ərzində müəyyən edilmiş günlərdə aparılır. Yarımillik və illik qiymətlər zaçotların nəticələrinə görə müəyyən olunur.